# Musiqi tariximizdən

## "HÜMAYUN"

"Hümayun" şifahi - professional Azərbaycan musiqisində əsas muğam dəstgahlarından yeddincisidir. "Hümayun" Yaxın Şərq xalqlarının klassik musiqisinə daxil olan 24 şöbədən birinin adıdır.

"Hümayun" sözü cənnət quşu, şahlıq quşu mənasını daşıyırsa, onun ikinci mənası uğurlu, səadətli deməkdir.

Ü.Hacıbəyov özünün fundamental əsəri olan "Azərbaycan xalq musiqisinin əsasları" kitabında "Humayun"u "Şüştər"lə müqayisə əsasında belə qənaətə gəlir ki, bədii-ruhi təsir cəhətdən "Hümayun" dinləyicidə "Şüştər"ə nisbətən daha dərin bir kədər hissi oyadır.

"Hümayun" muğamının məcmusunu aşağıdakı şöbə və guşələr təşkil edir: "Bərdaşt", "Hümayun", "Feli", "Şüştər", "Tərkib", "Üzzal", "Kiçik Məsnəvi", "Hümayuna ayaq".

## "ORTA MAHUR"

Azərbaycanda "Rast" ailəsinə aid olan dəstgahlardan biri də "Orta Mahurdur".

Kök baxımından fərqlər olduğu kimi, "Mahur-hindi" ilə "Orta Mahur" arasında şöbələrin ardıcıllaşması cəhətdən də fərqlər üzə çıxır. Müasir zamanda hər iki dəstgahın məcmusunu 8 şöbə təşkil edir.

Əgər hər iki "Mahur"un əvvəlində işlənən 6 şöbə ("Bərdaşt", "Mayeyi-Mahur", "Üşşaq", "Hüseyni", "Vilayəti", "Şikəsteyi-Fars") eynidirsə, son iki şöbə fərqlidir. Belə ki, "Mahur-hindi"nin sonunda "Əraq" və "Qərai", "Orta Mahur" da isə "Mübərriqə" və "Əşiran" ardıcıllaşır.